ƏDƏBİYYAT

1. Алиева Р.К. Отработка оптимальной модели развития стоматологической службы детскому населению Азербайджанской Республики: Автореф. дис. … докт.мед.наук.- М., 43 с.

2. Алимский А.В. Геронтостоматология: настоящее и перспективы // Стоматология для всех, 1999, №1, с. 29-31.

3. Ахмедов А.А. Медико-географические особенности кариеса зубов в Азербайдъанской ССР: Автореф. дис. … докт.мед.наук.- М., 1968, 39с.

4. Безруков В.М., Леонтьев В.К., Алимский А.В. Вопросы геронтостоматологии в эпоху рыночных отношений. Сб.тезисов и докл. III Междунар. семинара по вопросам пожилых «Самарские лекции».- Самара1998, с. 118-119.

5. Везиров Т.Р. Клинико-эпидемиологические особенности и лечение воспалительных заболеваний пародонта у мигрантов и вынужденных переселенцев в г.Баку: Автореф. дис. … канд. мед.наук.- Баку, 2005, 20 с.

6. Кафаров К.К. Эпидемиологические особенности и этиологическая структура воспалительных заболеваний пародонта, рационализация их консервативного лечения и профилактика в г.Баку: Автореф. дис. … канд.мед.наук.- Баку, 2004, 20с.

7. Керимов Э.Э. Патогенез болезней пародонта при патологии щитовидной ъелезы и особенности их профилактики в очагах зобной эпидемии Азербайджанской Республики: Автореф. дис. …докт.мед.наук.- Киев, 1989, 46с.

8. United Nation. Problems of the elderly and the ages. Draft program and arrangement for the World As. on the Elderly // Report of the Secretary-General.- New York. 1980, 72 p.

SUMMARY

STOMATOLOGICAL DESEASE AND NEEDS IN DENTAL PROSTHETICS OF PERSONS OF THE PENSION AGE

A.N.Niyazov

The stomatological clinical and epidemiological researches of the oral cavity which has been carried out for 861 persons of the pension age, living in the Western region of the Azerbaijan Republic, have shown 100 % spoiled teeth caries and with diseases of the parodonts.

On the average intensity of the caries among pensioners has consist 27,61+1,5 teeth; disease parodonts had an average and heavy degree of current that promoted high loss of the teeth and development secondary partial adenitis.

The population of a pension age of
region had 100 % needs in dental prosthetics.

More than 75 % of fixed and 90 % of demountable kinds of the artificial limbs which have been found out are recognized in pensioners not suitable to use.

Counting upon 1000 population of the pension age the requirement for manufacturing fixed artificial limbs has consist 912, and demountable 1666.

Daxil olub: 10.09.2008

SƏHIYYƏNIN PLANLAŞDIRILMASINDA REGIONLARDA DOĞUM DINAMIKASININ ROLU

Ş.B.Bağırova

Ə.Əliyev adına Azərbaycan Dövlət həkimləri təkmilləşdirmə institutu, Bakı

Tibbi – demoqrafik situasiyanın vacib göstəricisi olan doğum əmsalı səhiyyənin cari və perspektiv planlaşdırılması üçün mühüm informasiya mənbəyi hesab olunur. Doğumun səviyyəsi və dinamikası ilk növbədə mama – ginekologiya xidməti şəbəkəsinin fəaliyyətinin planlaşdırılmasında istifadə oluna bilər. Digər tərəfdən doğumun dinamikası səhiyyənin resurs təminatının prioritetlərini təyin etmək üçün yararlı ola bilər. Ona görə də doğumun dinamikası səhiyyə təşkilatlarının tədqiqatlarında xüsusi yer tutur. Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına görə Şərqi Avropada, o cümlədən Azərbaycanda doğumun azalması "Əhalinin əvəz olunması" üçün təhlükə yarada bilən səviyyəyə yaxınlaşır [2]. Bununla bağlı əksər ölkələrdə

əhalinin "qocalması" problemi dərinləşir. Nəticədə əhali arasında xroniki xəstəliklərin çoxalması ücün zəmin yaranır və ölüm riski artır [1,2]. Tatarstanda doğumun monitorinqi göstərir ki, ölkənin neft istehsalı ilə məşğul olan regionlarında 1996 – 2005 – ci illərdə doğum əmsalının azalma tempi daha intensivdir [3]. Həştərxan vilayətində doğum dinamikasının 1986 – 1998 – ci illərdə azalma, 1999 – 2005 – ci illərdə isə artma tempi ilə səciyyələnməsi göstə-ricinin regional aspektlərinin fərqli olmasını nümayiş etdirir [7]. Rusiyanın Tomsk vilayətində ölüm və doğum əmsallarının nisbəti 2 – 3 arasında dəyişir [4]. Leninqrad vilayətində doğumun qısa müddətli artması 2005 – ci ildə təkrarı azalma ilə əvəz olunmuşdur [5]. Göründüyü kimi doğumun dinamikasında regional fərqlər çoxdur. Bizim ölkəmizdə doğumun regional xüsusiyyətləri geniş təhlil olunmamışdır. Ona görə də tədqiqatımızda Azərbaycanın Aran iqtisadi rayonunda doğumun regional xüsusiyyətlərinin səhiyyənin planlaşdırılmasında rolunu qiymətləndirməyi qarşımıza MƏQSƏD qoyduq.

TƏDQIQATIN MATERIALLARI VƏ METODLARI. İlkin material kimi rəsmi statistika mənbələri istifadə olunmuşdur. Təhlil üçün 1987 – 2007 – ci illərin müvafiq məlumatları seçilmişdir. Aran iqtisadi rayonuna daxil olan 18 inzibati vahidlər üzrə doğumun dinamikası araşdırılmışdır. Ən kiçik kvadratlar metodu ilə doğum əmsallarının dinamikası qiymətləndirilmişdir. Statistik işləmədə keyfiyyət əlamətlərinin və dinamik cərgələrin təhlili metodlarından istifadə olunmuşdur [6].

Cədvəl 1
Aran iqtisadi rayonun inzibati ərazilərindən 1987 və 2007-ci illərdə doğum əmsalının səviyyəsinə görə ranqları

İnzibati ərazilər	Ranq		İnzibati ərazilər	Ranq	
	1987	2007		1987	2007
Ağcabədi	7	4	Neftçala	12	12
Ağdaş	10	7	Saatlı	3	9
Beyləqan	8	11	Sabirabad	6	5
Bərdə	11	10	Salyan	16	16
Biləsuvar	1	3	Ucar	4	13
Göyçay	13	15	Zərdab	5	2
Hacıqabul	9	1	Şirvan	15	17
İmişli	14	14	Mingəçevir	18	18
Kürdəmir	2	8	Yevlax	17	11

Qeyd: ranq korrelyasiya əmsalı (ρ)-0,6; n = 18; t = 3,0; p ∠ 0,05.

ALINMIŞ NƏTICƏLƏR VƏ ONLARIN MÜZAKIRƏSI. Aran iqtisadi rayonunun bütün inzibati ərazilərində doğum əmsalının səviyyəsi 1987 – ci ıdə (müşahidənin şərti başlanğıc dövrü) kifayət qədər yüksək olmuş və 25,9 ‰ (Mingəçevir şəhəri) ilə 34,6 ‰ (Biləsuvar rayonu) arasında tərəddüd etmişdir. Bu dövrdə doğum əmsalı rayonlarda ümumrespublika səviyyəsindən 0,96 – 1,28 dəfə fərqlənmişdir. 2007 – ci ildə ölkədə olduğu kimi Aran iqtisadi rayonunda da doğum xeyli azalmışdır. Ayrı – ayrı inzibati ərazilər üzrə doğum göstəricisi 12,1 ‰ (Mingəçevir şəhərində) ilə 22,7 ‰ (Zərdab rayonunda) arasında olmuş və ümumrespublika səviyyəsindən (17,2 ‰) 0,70 – 1,32 dəfə fərqlənmişdir. Göründüyü kimi inzibati ərazilər üzrə dinamika fərqli olmuş və ümumrespublika səciyyəsinə tam uyğun deyildir. Müqayisə aparılan müddətdə (1987 – 2007 – ci illər) doğum əmsalı ölkə miqyasında 1,6 dəfə azalmışdır (azalma tempi 36,3 %). Aran iqtisadi rayonunun inzibati ərazilərində doğum əmsalının azalması 1,3 – 2,1 dəfə arasında tərəddüd edir (azalma tempinin intervalı: 25,6% - 53,3%). Beləliklə, Aran iqtisadi rayonunun inzibati ərazilərində son 20 il müddətində doğumun azalma səviyyəsi və tempi biri – birindən və ümumrespublika səciy-yəsindən fərqlənir. Bu fərq həmin ərazilərin 1987 və 2007 – ci il-lərdəki doğum səviyyəsinə görə ranqlarının müqayisəsi ilə daha əyani özünü biruzə verir (cədvəl 1). Göründüyü kimi, bir sıra rayonların ranqları dəyişməmişdir (İmişli, Nefçala, Salyan, Mingəçevir). Bəzi rayonlarda ranqın dəyişməsi böyük deyil (Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, Sabirabad, Zərdab, Şirvan). Ranqın kəskin dəyişməsi Hacıqabulda (9 – dan 1 – ci yerə), Kürdəmirdə (2 – dən 8 – ci yerə), Saatlıda (3-dən 9-cu yerə), Ucarda (4-dən 13-cü yerə) və Yevlaxda (17-dən 11-ci yerə) müşahidə olunmuşdur.

Yevlax istisna olmaqla bu rayonların hamısında doğum əmsalının ranqı yüksəlmişdir. 1987-2007-ci illərdə doğum əmsalına görə rayonların ranqları arasında orta dərəcəli korrelyasiya əlaqəsi aşkar edilmişdir (ρ = 0,6; n = 18; t = 3,0; p $\angle$ 0,05). Bu məlumatları nəzərə alsaq qeyd etmək lazımdır ki, Aran iqtisadi rayonunun inzibati ərazilərində doğum dinamikası ümumi qanunauyğunluğa malikdir.

Cədvəl 2

Aran iqtisadi rayonun inzibati vahidləri üzrə doğumun dinamikası

İnzibati vahidlər	Azalma dövrü, 1987-2001			Artma dövrü, 2001-2008		
	Başlanğıc səviyyəsi ‰	Son səviyyə,‰	y = a± bx	Başlanğıc səviyyə,‰	Son səviyyə,‰	y = a ± bx
Ağcabədi	31,7	13,9	21,6-1,972x	13,9	20,2	16,5+1,05x
Ağdaş	30,5	15,5	23,8-1,875x	15,5	18,9	16,2+0,92x
Beyləqan	31,2	11,8	22,5-1328x	11,8	18,1	13,9+1,22x
Bərdə	30,2	14,5	23,3-1,257x	14,5	18,3	15,4+1,02x
Biləsuvar	34,6	17,4	27,4-1,415x	17,4	20,7	18,1+0,87x
Göyçay	29,9	14,6	23,4-1,09x	14,6	17,3	15,5+0,32x
Hacıqabul	31,1	15,3	24,2-1,12x	15,3	22,7	18,1+1,41x
İmişli	29,8	13,2	22,4-1,31x	13,2	17,6	14,5+0,68x
Kürdəmir	33,5	17,7	26,6-1,23x	17,7	18,9	17,2+0,20x
Neftçala	30,1	14,5	23,3-1,18x	14,5	18,0	15,3+0,45x
Saatlı	33,3	12,7	24,1-1,36x	12,7	18,9	14,8+1,31x
Sabirabad	32,0	11,6	22,8-1,49x	11,6	19,8	14,7+1,58x
Salyan	27,5	11,9	20,8-1,18x	11,9	17,2	13,6+1,15x
Ucar	33,1	14,6	24,9-1,22x	14,6	17,9	15,3+0,75x
Zərdab	32,4	17,2	25,8-1,16x	17,2	20,9	18,5+0,46x
Şirvan	28,0	11,6	20,6-1,29x	11,6	13,9	13,2+0,43x
Mingəçevir	25,9	10,5	19,2-1,05x	10,5	12,1	11,0+0,26x
Yevlax	26,2	12,4	20,4-0,98x	12,4	19,5	14,2+1,21x
Azərbaycan Respublikası	27,0	13,8	21,4-0,94x	13,8	17,2	14,8+0,54x

1987-2007- ci illərdə ölkədə olduğu kimi ayrı-ayrı rayon və şəhərlərdə doğum əmsalının dəyişməsində iki istiqamət ayırd etmək olur: 1987-2001-ci illər arasında göstəricinin səviyyəsi azalma, 2001-2007-ci illərdə isə artma ilə səciyyələnir. Qeyd olunan intervallarda doğumun dinamikası 2-ci cədvəldə verilmişdir. 1987-2001-ci illərdə inzibatı ərazilərin doğum əmsalına görə ranqı dəyişmişdir, amma ranqlar arasında yüksək dərəcəli korrelyasiya (ρ = 0,67; n = 18; t = 3,0 p $\angle$ 0,05) əlaqəsi saxlanılır. Bu göstərir ki, inzibati rayonlarda doğum əmsalı mütənasib azalmışdır. Azalma dinamikası düzxətli olduğuna görə onu a+bx (x-illərin ardıcıllıq nömrəsi; a və b reqressiya əmsalları) formulu ilə səciyyələndirmək olar. Aldığımız reqressiya əmsalları 2 – ci cədvəldə verilmişdir. Doğum əmsalının başlanğıc (1987) və son (2001) faktiki səviyyələri onların reqressiya tənliyi ilə hesablanmış səviyyələri ilə düz mütənasibdir və yüksək dərəcədə korrelyasiya əlaqəsinə malikdir (ρ = 1,0; p $\angle$ 0,05). Ölkə miqyasında olduğu kimi ayrı-ayrı rayon və şəhərlərdə 2001 – ci ildən başlayaraq doğum əmsalı çoxalmışdır. Artma tempi ölkədə 2007-ci ildə 24,6%, Aran iqtisadi rayonunun inzibati ərazilərində 6,8% (Kürdəmir rayonunda) ilə 70,6% (Sabirabad) arasında olmuşdur. Əksər rayonlarda artma tempi ümumrespublika səviyyəsinə (24,6%) yaxındır (Ağdaş, Bərdə, Biləsuvar, Göyçay, İmişli, Neftçala, Ucar, Zərdab, Şirvan və Mingəçevir). Yüksək artma tempi (40%-dən çox) Ağcabədi (45,3%), Beyləqan (53,4%), Hacıqabul (48,4%), Saatlı (48,8%), Sabirabad(70,6%), Salyan(44,5%) və Yevlax(57,3%) ratonlarında qeydə alınmışdır. 2001-2007-ci illərdə doğum əmsalının başlanğıc və son səviyyələrinə görə inzibati ərazilərin reytinqi stabil olmamışdır. Reytinqin ən çox dəyişdiyi rayonlara Göyçay (7-ci yerdən 15-ci yerə), Ağcabədi (10-cu yerdən 4-cü yerə), Yevlax (13-cü yerdən 6-cı yerə), Ucar(6-cı yerdən 13-cü yerə) və Kürdəmir (1-ci yerdən 7-ci yerə) rayonları aiddir.

Reytinq Mingəçevir və Şirvan şəhərlərində stabil olmuş, Bərdə, Biləsuvar və Zərdabda bir pillə dəyişmişdir.İnzibati ərazilərin doğum əmsalının səviyyəsinə görə 2001 və 2007- ci

illərdəki rey-tinqləri arasında korrelyasiya əlaqəsi ($\rho = 0,45$; $t = 2,0$; $p \angle 0,05$) dürüstdür ($p < 0,05$) və orta dərəcədədir. Bu əlaqənin düzxətli olması doğum əmsalının dinamikasını səciyyələndirən reqressiya tənliklərini əsaslandırmağa imkan verir. Aldığımız nəticələr 2 – ci cədvəldə əks olunmuşdur.

Beləliklə, ölkənin regionlarında doğumun dinamikası müəyyən qanunauyğunluqla səciyyələnir və bununla bağlı əhalinin tibb xidmətlərinə tələbatının dəyişilməsi üçün zərurət yaranır. Doğumun dinamikası əhalinin yaş tərkibinin dəyşilməsi ilə müşayət olunur. Qeyd olunmuş dinamikanın əsasında əhalinin tibb xidmətlərinə tələbatını proqnozlaşdırmaq və müvafiq olaraq səhiyyə resurslarının təminatını korreksiya etmək olar.

ƏDƏBİYYAT

1. Гасников В.К., Савельев В.Н., Стрелков Н.С. Особенности Российского демографического развития // Проблемы социальной гигиены, здравоохранения и истории медицины, 2008, № 2, с. 8-9
2. Здоровье населения в Европе. ВОЗ, 2000. 90с.
3. Иванов Г.Л., Тафеева Е.А. Особенности медико-демографической ситуации на территории нефтедобывающих районов республики Татарстан // Проблемы социальной гигиены, здравоохранения и истории медицины, 2008, № 5, с. 11-14
4. Кладов С.Ю., Новоселов В.П. Демографическая ситуация на среднеурбанизированной территории Западной Сибири // Проблемы социальной гигиены, здравоохранения и истории медицины, 2008, № 4, с. 12-15
5. Рожавский Л.А. Медико-демографические проблемы Ленинградской области // Проблемы социальной гигиены, здравоохранения и истории медицины, 2008, № 1, с. 5-7
6. Стентон Г. Медико-биологическая статистика.- М., 1999, 459 с.
7. Шендо Г.Л., Жданова И.Г., Рябинкин В.Р., Ярославцев А. С. Особенности демографических процессов в Астраханской области // Проблемы социальной гигиены, здравоохранения и истории медицины, 2007, № 4, с. 7-12.

SUMMARY

THE ROLE OF BIRTH DYNAMICS IN REGIONS FOR PLANNING THE PUBLIC HEALTH

Sh.B. Bagirova

Taking into consideration the variability of demand of population in medical assistance depending on birth rate, the aim is to value the regularity of its changing. The statistic materials are used during 1987-2007. The dynamic rows are compounded and the modern statistic methods of analyses are applied. It's stated that 2 periods are observed in dynamics of birth : the period of decrease (1987-2001) and the following increase (2001-2007).The changing of tempo is shown both of decrease and increase the coefficient of birth in different administrative regions by the growth of coefficient of birth in 1987 and 2007 is displayed, and it is evidence of availability of general regularity of reproduction of population. It's considered that ascertained regularities of birth dynamics can be used for prognostication and planning the resort securing of health service.

Daxil olub: 10.09.2008

SİLAHLI QÜVVƏLƏRDƏ KƏSKİN BAĞIRSAQ İNFEKSİYALARININ ÇOXİLLİK DİNAMİKASININ TƏHLİLİ

S.T. Məmmədov

Azərbaycan Respublikası Müdafiə Nazirliyi, sanitar-epidemioloji nəzarət mərkəzi, Bakı

Kəskin bağırsaq infeksiyaları (KBİ) infeksion xəstələnmənin strukturunda ön sıralardan birini tutaraq, hətta ayrı-ayrı illərdə qrip və kəskin respirator infeksiyalarını da arxada qoyur [5,8]. Onlar uşaq ölümü strukturunda 4-cü yeri, uşaq infeksion xəstəlikləri içərisində isə 2-ci yeri tutur [1]. Kəskin bağırsaq infeksiyaları nəinki təkcə xəstələnmə göstəricisinin, hadisələrin tezliyinin yüksək olması və yüksək letallıqla da xarakterizə olunur [6,11].

Kəskin bağırsaq infeksiyaları enterobakteriyalar, şərti patogen mikroflora və viruslar tərəfindən törədilir. KBİ-nin strukturunda ayrı-ayrı nozoloci formaların xüsusi çəkisinin

öyrənilməsi göstərmişdir ki, burada salmonelyoz, şigelyoz, eşerixioz əsas yer tutmaqla geniş şəkildə yayılır və bütün qitələrdə qeydə alınırlar [2,7]. Lakin bunlara nisbətən şigelyozlar aparıjı mövqedə durur [9,10].


Hərbi hissələrdə də bağırsaq infeksiyalarının epidemioloji əhəmiyyəti müasir dövrdə artmışdır. Belə ki, hərbi hissələrdə bağırsaq infeksiyalarının əhəmiyyəti hərbi əməliyyatlar dövründə daha da aktuallaşır və şəxsi heyətin döyüş qabiliyyətinə nəzərə çarpacaq dərəcədə təsir göstərir [3,413].

KBİ qrupundan olan şigelyozlar təkcə mülki əhali arasında deyil, həmçinin silahlı qüvvələrdə geniş yayılmışdır. Belə ki, şigelyozlar ubikvitar yoluxucu xəstəliklər qrupuna daxil olub bir çox dövlətlərin hərbi kontingentinin döyüş qabiliyyətinin zəifləməsində böyük rol oynamışdır. Məsələn, ABŞ hərbi kontingentinin Yaxın Şərq, Jənub-Şərqi Asiya, Latın Amerikası və Afrikada yerləşən hissələrində 1990-2005-ci illər ərzində qeydə alınmış diareyalı xəstəliklərinin 38-45%-ni şigelyozlar təşkil etmişdir [12]. Həmçinin, İraqda hərbi əməliyyatlarda iştirak etmiş NATO hərbi qulluqçuları arasında da dizenteriyanın epidemik kükrəyişləri qeydə alınmışdır.

Respublikamızda da vəziyyət qənaətbəxş deyildir. Ölkəmizin müharibə vəziyyətində olması şigelyozlarla bağlı epidemioloci durumun xüsusilə gərginləşməsinə gətirib çıxarmışdır. Xəstəliyin inkişafında determinant şərtlərin çoxalması da epidemik prosesin gedişinə öz təsirini göstərmişdir. Bu baxımdan şigelyozlarda epidemik prosesin inkişaf tendensiyasının araşdırılması profilaktik və əksepidemik tədbirlərin həyata keçirilməsini elmi cəhətdən əsaslandırır və aparılan tədbirlərin keyfiyyətini yüksəldir.

Şigelyozların profilaktikası üzrə tədbirlərin təşkili, baş verdiyi hallarda isə epidemik ocağın təjili ləğv edilməsi dərin təhlil və xəstələnmənin müəyyən epidemioloji determinantlarının aşkar olunması nəticəsində həyata keçirilə bilər. Bunu nəzərə alaraq, biz 1993-2005-ci illərdə baş vermiş xəstələnmə hallarının retrospektiv epidemiolo;i analizinin aparılmasını məqsədəuyğun hesab etmişik.

TƏDQİQATIN MATERİAL VƏ METODLARI. Hazırkı tədqiqat işinin aparılmasında əsas məqsəd epidemik prosesin çoxillik dinamikada öyrənilməsi və onun dövri dəyişmələrini üzə çıxarmaq olmuşdur. Bunun üçün tədqiqat materialı kimi 1993-2005-ci illərdə şəxsi heyət arasında KBİ ilə xəstələnmə haqqında məlumatlar (forma №85) götürülmüş və statistik üsulla işlənmişdir.



Şək.1. Şəxsi heyət arasında KBİ-nin strukturu

NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ. Şigelyozlar zamanı epidemik prosesin inkişaf qanunauyğunluqlarını öyrənmək üçün çoxillik dinamikada KBİ-nin və şigelyozlarla xəstələnmənin strukturu və dövriliyi müəyyən edilmişdir.

Aşkar olmuşdur ki, 1993-2005-Ci illər ərzində şəxsi heyətin infeksion xəstələnməsinin strukturunda KBİ aparıcı yerlərdən birini tutmuş və ümumi infeksion xəstələnmənin 25,44%-ni (1161 hadisə) təşkil etmişdir. Hərbi qulluqçular arasında aktuallıq kəsb edən şigelyozlar isə

ümumi infeksion patologiyanın 6,67% (305 hadisə), kəskin bağırsaq infeksiyalarının isə 22,65%-ni (263 hadisə) təşkil etmişdir (Şək. 1).

Ayrı-ayrı illərdə şigelyozlarla xəstələnmənin ümumi infeksion patologiyada və KBİ-də paylanması da bu nisbətdə saxlanmışdır (Cədvəl).

Cədvəl

Şigelyozlarla xəstələnmənin xüsusi çəkisi


Xüsusi çəki, %	İllər					
	1993	1994	1995	1996	1997	1998
Ümumi infeksion xəstələnmədə	16,5	22,1	10,6	2,2	7,8	4,1
KBİ-də	34,4	47,2	50,4	12,5	29,6	12,5

Xüsusi çəki, %	İllər						
	1999	2000	2001	2002	2003	2004	2005
Ümumi infeksion xəstələnmədə	7,1	6,3	2,6	2,4	2,6	1,6	1,0
KBİ-də	18,4	18,4	10,0	11,7	14,9	8,5	7,3

Cədvəldən göründüyü kimi, 1993-cü ildə şigelyozlarla xəstələnmə il ərzində ümumi infeksion xəstələnmənin 16,47%, KBİ-nin isə 34,39%-ni təşkil etmiş və mövsümarası xəstələnmə 0,9, ilboyu xəstələnmənin illik göstəricisi isə 2,92 olmuşdur. 1994-jü ildə ilboyu xəstələnmənin illik göstəricisi 10,7, mövsümarası xəstələnmə 7,4%, mövsüm əlavəsi isə 92,6% olmuşdur, yəni müvəqqəti təsir göstərən faktorların aktivliyi hesabına 1994-cü ildə şigelyozların epidemik prosesi 1993-cü ilə nisbətən daha intensiv olmuşdur. 1995-ci ildə şigelyozlara görə epidemioloji vəziyyət qənaətbəxş olmamışdır. Belə ki, çoxiillik dinamikadan göründüyü kimi, tədqiq olunan illər arasında ən çox xəstələnmə halları bu ilin payına düşmüşdür. 1995-ci ildə ilboyu xəstələnmənin illik göstəricisi 10,7, mövsümlərarası xəstələnmə 6,1%, mövsüm əlavəsi isə 93,9% olmuşdur. Ümumi infeksion patologiya ilə müqayisədə şigelyozlarla xəstələnmə 1993-cü ilə nisbətən 1,6 dəfə, 1994-cü ilə nisbətən isə 2,1 dəfə azalmışdır. Bu ildə şigelyozlarla xəstələnmə hallarının çəkisi 1994-cü ilə nisbətən KBİ ilə müqayisədə 3,2%, 1993-cü illə müqayisədə isə 16,0% artmışdır. 1996-cı ildə şigelyozlarla xəstələnmə hallarının payı kəskin bağırsaq infeksiyalarına münasibətdə 1993-cü ilə nisbətən 21,86%, 1994-cü ilə nisbətən 34,66%, 1995-ci ilə nisbətən isə 37,9% azalmışdır, yəni həmin ildə şigelyozlar zamanı epidemik proses əvvəlki 3 ilə nisbətən zəifləmişdir. 1997-ji ildə isə şigelyozların epidemik prosesinin intensivliyi yenidən aktivləşmişdir. Qeyd olunan ildə dizenteriyanın ümumi infeksion patologiyada və KBİ-da payı müvafiq olaraq 7,79% və 29,59% təşkil etmişdir. Şigelyozların epidemik prosesinin aktivliyi 1998-ji ildə zəifləməyə doğru meyllənmiş və kəskin bağırsaq infeksiyaları içərisində payı 12,49% olmuşdur. 1999-cu ildə dizenteriyanın ümumi infeksion patologiyada payı 7,07%, kəskin bağırsaq infeksiyaları içrəsindəki payı isə 18,38% olmuşdur. 2000-ci ildə şigelyozların epidemik prosesinin aktivliyi nisbi stabil olmuş, 2001-ci ildə isə o, zəifləmişdir. 2002-ci ildə şigelyozların epidemik prosesinin intensivliyi yenidən yüksəlmişdir. 2003-ci ildə şigelyozlarla xəstələnmə səviyyəsinin azalmasına baxmayaraq, onun KBİ arasında xüsusi çəkisi artmışdır. 2004-ci ildə şigelyozlarla epidemik prosesi yenidən zəifləmişdir. 2005-ci ildə şigelyozlarla xəstələnmə halları bir sıra fərqlərin olmasına baxmayaraq, 2005-ci ildə şigelyozların ümumi infeksion patologiyada və kəskin bağırsaq infeksiyaları içərisindəki payı müvafiq olaraq 1,01% və 7,32% olmuşdur. 13 il ərzində KBİ və şigelyozlarla xəstələnmənin çoxillik dinamikasının izlənilməsindən görünür ki, qrafik əyrilər sinxronluqla dəyişir və yalnız fərq 1998-ci ildə müşahidə olunur (Şək.2).

Şəkildən 2-dən göründüyü kimi, şigelyozlarla xəstələnmənin dövri şəkildə artıb-azalması müşahidə olunur. Bu, KBİ zamanı da izlənir. Yəni hər iki halda 2-5 illik interval aydın nəzərə çarpır. Düzdür, 1998-ci ildə KBİ ilə xəstələnmə artdığı halda, şigelyozlarla xəstələnmə, əksinə, azalmışdır. Qalan illərdə isə qeyd olunan qanunauyğunluq öz əksini tapmışdır. Belə ki, xəstələnmə səviyyəsi 1993-cü ildən yüksəlməyə başlayır və 1994/95-ci illərdə də artım tendensiyası davam edir. 1996-jı ildə isə həm KBİ, həm də şigelyozlarla xəstələnmə azalır. KBİ ilə xəstələnmə 1997-ci ildən, şigelyozlarla xəstələnmə isə 1998-ci ildən artıq yeni səviyyədən başlayaraq yüksəlir. 2000-ci ildən etibarən KBİ və şigelyozlarla xəstələnmənin tendesiyası azalmağa başlayır və öyrənilən sonuncu - 2005-ci ilə qədər

davam edərək bu ildə minimum səviyyəyə çatır. Onu da qeyd edək ki, şigelyozlarla xəstələnmənin maksimum səviyyəsi 1995-ci ildə müşahidə olunmuşdur. Belə ki, 13 il ərzində şigelyozlarla xəstələnmənin 23,6%-i məhz bu ilin payına düşmüşdür.



Şək.2. KBİ və şigelyozlarla xəstələnmənin çoxillik dinamikası

Biz epidemik prosesin inkişaf qanunauyğunluqları baxımından 1993-2005-ci illər ərzində qeydə alınmış KBİ və şigelyozların çoxillik orta aylıq dinamikasının müqayisəli araşdırılmasını da məqsədəuyğun saymışıq. Çoxillik dinamikada olduğu kimi, həm KBİ, həm də şigelyozlarla xəstələnmənin çoxillik orta aylıq dinamikası da, demək olar ki, eyni sinxronluqla dəyişmişdir. Hər iki qrafik əyrisinin öyrənilməsi zamanı məlum olur ki, Azərbaycan şəraitində iqlimin istiləşməsi mövsümi amillərin aktivləşməsinə səbəb olur və bunun hesabına xəstələnmə hallarının artımı əsasən may ayından başlayır. Yüksəlməkdə davam edən xəstələnmə hadisələri iyun ayında orta aylıq səviyyəni aşır, mövsüm amillərinin optimal təsir göstərməsi üçün əlverişli şərait yaranır və mövsümilik başlayır. Şəkildən göründüyü kimi, şigelyozlarda maksimum xəstələnmə səviyyəsi iyul ayında pik səviyyəsinə çatmış və növbəti aylarda azalaraq oktyabrda çoxillik orta aylıq səviyyədən az olmuş, sonrakı 2 ayda isə minimal olmuşdur.

Beləliklə, şigelyozların çoxillik dinamikasının təhlili nəticəsində aşkar edilmişdir ki, xəstələnmə səviyyəsi 1999-cu ilə qədər artmağa meylli olmaqla, 2 ilə bərabər dövrilik müşahidə olunmuşdur. 2000-2005-ci illərdə isə o, azalmağa doğru meyllənmiş və dövriliyin bu qanunauyğunluğunun pozulması və dövriliyin 2-5 ildən bir nəzərə çarpması qeyd olunmuşdur. Mövsümilik isə həm KBİ, həm də şigelyozlarda iyunda başlamış və sentyabrda sona yetmişdir, yəni mösümiliyin davametmə müddəti 4 ay olmuşdur.

ƏDƏBİYYAT

1. Александрова О.К., Дубова Л.В., Тетенкова А.А. и др. Клинико-эпидемиологические особенности течения шигеллёза зонне 2g у детей / Юбилейная научная конференция, посвященная 80-летию кафедры микробиологии Военно-медицинской академии и 300-летию основания Санкт-Петербурга. СПб, 2003, с.10.

2. Андрушенко Н.П., Ботушанская В.К. Заболеваемость кишечными инфекциями в Тирасполе и задачи по его снижению / Проблемы эпидемиологии, эпидемиологии и паразитологии. Кишинев, 1987, с.85-86

3. Беляков В.Д. Военная эпидемиология. Л., 1976, 284с.

4. Ершов В.И., Рахманов Р.С. К вопросу о современном состоянии профилактики дизентерии в войсках / Профилактика актуальных инфекционных заболеваний и дизадаптационных расстройств у военнослужащих в современных социально-экономических условиях. Материалы научно-практической конференции. Нижний Новгород, 2000, с.18

5. Изучение и контроль инфекционных болезней. Дизентерия и другие острые кишечные

диарейные заболевания. Указания по диагностике, лечению и профилактике в Вооруженных Силах Российской Федерации. Министерство обороны Российской Федерации. Главное военно-медицинское управление. Москва, 1999.

6. Наркевич М.И., Тымчаковская И.М. Инфекционная заболеваемость в России // Журнал микробиологии, 1997, №3, с.48-52

7. Наркевич М.И., Онищенко Г.Г., Солодовников Ю.П. Состояние заболеваемости и профилактики острых кишечных инфекций в стране // Журнал микробиологии, 1997, №4, с.120-123.

8. Неверова Известия Науки. Здоровье, 2005, №11 О. Бактерия шигелла против человеческого фактора //, с.5-7.

9. Тагизаде Т.А., Кулиева Э.М., Усаковская Л.М. Эпидемиологический надзор кишечными инфекциями в Азербайджанской ССР / Тематический сборник работ санитарно-гигиенического факультета АМУ. Баку, 1990, с.181-184.

10. Ahmed F., Clemens J., Rao M. Epidemiology of shigellosis among children exposed to cases of shigella dysentery: a multivariate assessment // American Journal of Tropical Medicine and Hygiene, 1997, v.56, No 3, p.258-264.

11. Cho S., Kim J., Kim J. et al. Surveillance of bacterial pathogens associated with acute diarrheal disease in the Republic of Korea during one year, 2003 // J. Microbiol., 2006, v. 44, No 3, p.327-335.

12. Ranallo R., Thakkar S., Chen Q., Venkatesan M. Immunogenicity and characterization of WRSF2G11: A second generation live attenuated Shigella flexneri 2a vaccine strain // Vaccine, 2007, v. 25, No 12, p.2269-22678.

13. Schwartz B., Harris J., Khan A. et al. Diarrheal epidemics in Dhaka, Bangladesh, during three consecutive floods: 1988, 1998, and 2004 // Am. J. Trop. Med. Hyg., 2006, v. 74, No 6, p.1067-1073

SUMMARY

THE ANALYSIS A LOT OF YEARS DYNAMICS OF SHARP INTESTINAL INFECTIONS IN ARMED FORCES

S.T.Mamedov

For studying law of development of epidemic process at shigellosis in long-term dynamics the structure of diseases and seasonal prevalence acute intestinal infections (AII) and shigellosis is certain. It has been revealed, that for 1993-2005 in structure infectious morbidity staff AII borrows one of leading places and makes 25,44 % from the common infectious diseases, 22,65 % of sharp intestinal infections. For 13 years a lot of years dynamics of diseases AII and shigellosis varies synchronously and difference appearance only per 1998. As a result of long-term dynamics shigellosis was revealed, that the level of diseases up to 1999 tended to increase and periodicity was equaled 2 years. For 2000-2005 the tendency of decrease in diseases is again revealed and periodicity in 2-5 years is noted.

Daxil olub: 18.10.2008

HIPERBILIRUBINEMIYASI OLAN YENIDOĞULMUŞLARDA BAĞIRSAQ DISFUNKSIYALARI ZAMANI KLINIK IMMUNOLOJI GÖSTƏRICILƏRIN DINAMIKASI VƏ PROBIOTIKOTERAPIYANIN SƏMƏRƏLILIYININ QIYMƏTLƏNDIRILNƏSI

N.A. Hüseynova

K.Y.Fərəcova adına elmi- tədqiqat pediatriya institutu, Bakı

Məlumdur ki, bağırsaq florası orqanizmdə bir sıra vacib funksiyaları, o cümlədən, kolonizasion rezistentliyin və immun tənzimlənmənin təmin olunmasında mühüm rol oynayır [2,3]. Bağırsaq florası həmçinin infeksiyaya qarşı immun cavabı stimullaşdırır. Bağırsağın selikli qişası bütün immunsəlahiyyətli hüceyrələr yerləşən ən böyük immun orqan olmaqla potensial təhlükəli antigenlərin, mikroorqanizmlərin və patogen faktorların immunoloji eliminasiyasında iştirak edir [4,5,6].

Bağırsaq florası yağ və piy mübadiləsində iştirak edir.Mikrofloranın təsiri altında yoğun

bağırsaqda düz bilirubin urobilinogenə çevrilir.Bağırsaq mikroflorasının kəmiyyət və keyfiyyət pozğunluqları zamanı düz bilirubin bağırsaq divarında betta qlükuronidazanın təsiri altında toksik qeyri düz bilirubinə keçir və sarılığın intoksikasion potensialını artırır.Normal bağırsaq florası xolin,öd və yağ turşusu mübadiləsində iştirak edərək dezoksixol turşusu,koprosterin və digər mübadilə məhsulları əmələ gətirir.Əmələ gələn bakterial fermentasiya məhsulları maddələr mübadiləsinə,kalsiuimun,dəmirin və D vitamininin utilizasiyasına müsbət təsir edir. [1]

Bağırsaq mikroflorasının kəmiyyət və keyfiyyət tərkibinin dəyişilməsi bağırsaq mikroekologiyasının disfunksiyası orqanizmdə kompensator-müdafiə mexanizmlərini pozur [7]. Bu səbəb-nəticə kompleksi bir çox patoloji prosesslərin, o cümlədən, infeksion-iltihabi xəstəliklərin inkişafına əlverişli-zəmin yaradır. Perinatal patologiyası olan yenidoğulmuşlarda bu məsələnin dinamik təhlili xüsusi maraq doğurur.

Tədqiqatın MƏQSƏDI hiperbilirubinemiyası olan yenidoğulmuşlarda bağırsaq florasının pozulması zamanı immun sistemdə baş verən dəyişikliklərin öyrənilməsi və probiotikoyerapiyanın səmərəliliyinin qiymətləndirilməsindən ibarət olmuşdur.

TƏDQİQATIN MATERİAL VƏ METODLARI. Qarşıya qoyulmuş məqsədi həyata keçirmək üçün hiperbilirubinemiyası olan 38 uşaq müayinə olunmuşdur.Müayinələr Elmi Tədqiqat Pediatriya İnstitunun bazasında aparılmışdır.

Müayinə üçün seçilmiş yenidoğulmuşlar 2 yarımqrupa bölünmüşdür: 1-ci qrupa disbiozu olan analardan doğulmuş, yenidoğulmuş hemolitik xəstəliyi olan 22 uşaq, 2-ci qrupa isə disbiozu olmayan analardan doğulmuş yenidoğulmuş hemolitik xəstəliyi olan 16 uşaq aid edilmişdir. Fərdi təhlillər zamanı müəyyən edilmişdir ki, anada disbiozun dərəcəsi nə qədər çoxdursa, uşaqda immun göstəricilərin təşəkkülü o qədər ləng baş verir. Bu ləngimə və immun sistemdə olan disbalans yenidoğulmuşların bağırsaq florasının vəziyyətindən asılı olaraq dəyişir.

Biz yenidoğulmuşlarda disbiozun dərəcəsindən asılı olaraq immun göstəricilərdə baş verən dəyişiklikləri təhlil etdik. Alınan nəticələr Cədvəl 1-də təqdim edilmişdir.

Cədvəldən göründüyü kimi istər hüceyrə, istərsə humoral immunitetin göstəriciləri disbiozun ağırlıq dərəcəsindən asılı olaraq dəyişilir. Bu dəyişikliklər T-limfositlərin, T-helperlərin miqdarının və Jq konsentrasiyasının azalması, Jq M və Jq A konsentrasiyaların artması ilə təzahür etmişdir. Daha qabarıq dəyişikliklər 3-cü dərəcə disbiozu olan yenidoğulmuşlarda həm hüceyrə, həm də humoral immunitet göstəricilərində baş vermişdir. Patoloji prosesin xarakterindən asılı olaraq immun göstəricilərdə baş verən dəyişikliklər bir-birindən dürüst seçilmiş və dizbiozun dərəcəsindən asılı olaraq fərqlənmişlər.

Yenidoğulmuşların hemolitik xəstəliyi olan uşaqlarda humoral immunitet göstəricilərlə müşahidə edilən dəyişikliklərin daha qabarıq olması, çox güman ki, patoloji prosesin immun genezli olması ilə əlaqədardır. Jq G dölün qanına ciftdən selektiv transport yolu ilə keçir.Bu qrup yenidoğulanlarda Jq M və Jq A nın artması (Cədvəl 1.) immun sistemin antigen stimulyasiyasının nəticəsi kimi qəbul edilməlidir.

Beləliklə, hiperbilirubinemiyası olan yenidoğulmuşlarda immun göstəricilərin neonatal dövrün dinamikasında təhlili göstərir ki,nəticələr yenidoğulmuşların və analarının bağırsaq florasının vəziyyətindən asılı olaraq dəyişir. Hiperbilirubinemiya zamanı humoral və hüceyrə immunitetinin göstəricilərində baş verən dəyişikliklər disbiozun ağırlıq dərəcəsindən asılı olaraq təzahür edir.

Hiperbilirubinemiya fonunda inkişaf etmiş bağırsaq dizbakteriozu müdafiə bakteriyalarının defisiti və şərti patogen floranın üstünlüyü ilə müşahidə olunur.

Hiperbilirubinemiyası olan yenidoğulmuşlarda bağırsaq mikroflorası pozğunluqlarının probiotiklərlə korreksiyasının klinik-mikrobioloji və immunoloji əsaslandırılmaq üçün seçilmiş yenidoğulmuşlar 3 qrupa bölünmüşlər:

1-ci qrupa laktobakterin (5doza gündə 3 dəfə) almış yenidoğulanlar (uşaq), 2-ci qrupa asidofilus alan yenidoğulmuşlar (12 uşaq), 3-cü qrupa antibiotikoterapiya fonunda asidofilus almış yenidoğulmuşlar (10 uşaq) aid edilmişdir.

Probiotikoterapiyanın kliniki səmərəliliyinin meyarları kimi uşaqların ümumi vəziyyəti, disfunksional pozğunluqların dinamikası və nəcisin xarakteri qiymətləndirilmişdir.

Hiperbilirubinemiyası olan yenidoğulmuşlarda bağırsaq dizbakteriozunun probiotiklərlə müalicəsi zamanı mikroflora bakteriyalarının miqdarı şəkil-1 də verilmişdir.

Şəkildən göründüyü kimi hiperbilirubinemiya fonunda inkişaf etmiş bağırsaq dizbakteriozu müdafiə bakteriyalarının defisiti və şərti patogen floranın üstünlüyü ilə müşahidə olunur.


Aerob biosenozun bütün müayinə olunan yenidoğulmuşlarda pozulması – şərti patogen floranın (Klebsiella, St. epider., St. aureus) yüksək səviyyədə olması qeyd olunmuşdur. Qeyd etmək lazımdır ki, bu floranın həm miqdarı (KOE/q), həm də aşkaredilmə tezliyi hər 3 yarımqrupda yüksək səviyyədə olmuşdur.

Cədvəl 1

Hiperbilirubinemiyası olan yenidoğulmuşlarda immun göstəricilərin disbiozun ağırlıq dərəcəsindən asılı olaraq vəziyyəti

Qruplar	İmmun göstəricilər	Disbiozun dərəcəsi		
1		|	||	|||
	T-Limfosit	51,6 (45-56)	49,0 (42-54)	48,2 (42-52)
(n=22)	T-helper	36,8 (31-40)	35,0 (30-39)	34,0 (30-39)
	T-supressor	14,8 (11-18)	14,0 (10-19)	14,2 (10-20)
	İTƏ	2,48	2,50	2,39
	B-Limfosit	14,0 (10-20)	13,6 (10-19)	13,2 (10-19)
	Ig G	3,56 (2,89-4,41)	3,42(2,76-4,22)	3,16 (2,51-3,96)^
	Ig M	0,38 (0,24-0,42)	0,46 (0,35-0,51)^^	0,42 (0,34-0,50)
	Ig A	0,32 (0,21-0,39)	0,32(0,21-0,38)	0,37 (0,28-0,44)
2	T-Limfosit	51,8 (46-58)	49,5 (45-54)	48,8 (44-52)
	T-helper	37,4 (32-42)	35,6 (30-40)	35,0 (31-39)
(n=16)	T-supressor	14,4 (10-19)	13,8 (10-19)	13,0 (10-18)
	İTƏ	2,59	2,57	2,69
	B-Limfosit	15,0 (11-20)	14,6 (10-19)	14,0 (10-18)
	Ig G	3,72 (2,91-4,10)	3,58 (2,70-3,90)	3,32 (2,46-3,70)^
	Ig M	0,50 (0,32-0,46)	0,58 (0,35-0,68)	0,54 (0,38-0,62)
	Ig A	0,39 (0,21-0,46)	0,44 (0,28-0,56)	0,49 (0,28-0,58)^^

Qeyd:Fərqin statistik dürüstlüyü: ^-p_0 <0,05; ^^- p_0 <0,01; ^^^- p_0 <0,001 –1-3 günün göstəricilərilə müqayisədə



Şək.1. Hiperbilirubinemiyası olan yenidoğulmuşlarda bağırsaq dizbakteriozunun probiotiklərlə müalicəsi zamanı mikroflora bakteriyalarının miqdarı

Probiotikoterapiya fonunda aparılmış təkrar müayinənin müqayisəli təhlili zamanı bağırsaq mikroflorasında normallaşma müalicənin 10-cu günü qabarıq müşahidə edilmişdir. Belə ki, floranın anaerob komponentində - xüsusi ilə laktobakteriyaların miqdarı və rastgəlmə tezliyində bu fərq daha qabarıq nəzərə çarpmışdır (Lg 8,25±0,29 KOE/q, 91,6%). Görünür, belə müsbət təsir asidofillus preparatının kompleks laktobacillus komponentlərinə malik olması ilə əlaqədardır. Lakin antibiotiklər almış uşaqlarda (3-cü qrup) bu səviyyə xeyli aşağı olmuşdur (Lq6,26±0,32 KOE/q; 60%) ki, bu, görünür, antibiotiklərin bağırsaq florasına "öldürücü" təsir etməsi ilə əlaqədardır.

Qeyd etmək lazımdır ki, antibakterial terapiya almış uşaqlarda bağırsaq florasının formalaşması xeyli ləngimiş, probiotikoterapiya kursundan sonra normobiosenoz heç bir uşaqda müşahidə edilməmişdir, onlarda stabil kliniki səmərə qeyd olunmamışdır.

Asidofilus almış yenidoğulmuşlarda şərti patogen floranın hər 2 yarımqrupda (2və3-cü qrup) eyni səviyyədə olması antibakterial preparatlardan istifadə etməyin heç bir əsası olmadığını bir daha sübut edir. Bununla yanaşı antibiotikoterapiya almış uşaqlarda bifidoflorada baş verən defisit uşaqların asidofilus preparatı almasına baxmayaraq, yenidoğulma dövrünün sonuna kimi (28-30-cu gün) davam etmişdir (Lg 6,10±0,35 KOE/q, 50,0%).Bu qrup uşaqlarda həmçinin kliniki statusda qeyri stabillik müşahidə edilmişdir. Qeyd olunanlar, çox güman ki, bağırsaq dizbakteriozu zamanı immun sistemdə gedən dəyişikliklə əlaqədardır.

Probiotikoterapiyadan sonra 3-cü dərəcə disbioz müşahidə edilməmiş, 2-ci dərəcə disbioz isə Laktobakterinlə müalicədən sonra 2,1 dəfə, asidofilusla müalicədən sonra sonra 4 dəfə azalmışdır.

Probiotik təyin edilənə qədər- bağırsaq disfunksiyaları əlamətləri (diareya, metiorizm**,** qaytarma, qusma, kəskin narahatlıq) qeyd olunmuş, nəcisin yaşılımtıl olması, selikli,tərkibində həzmolunmamış qida qarışıqlarının olması müşahidə edilmişdir.

Məlumdur ki, bifidobakteriyalar patogen və şərti patogen bakteriyalara qarşı antoqonist təsir göstərir və bağırsaq mikroflorasını normallaşdırır.

Normobiosenozun bərpa olması asidofilus ilə müalicədən sonra 62,5% uşaqda müşahidə edilmişdir ki, bu orqanizmin qeyri-spesifik rezistentliyinin artmasına səbəb olmuş vəziyyət kimi qəbul edilməlidir.

Laktobakterin və asidofilusun müqayisəli öyrənilməsi zamanı müəyyən edildi ki, bağırsaq disbiozunu korreksiya etmək məqsədi ilə istifadə olunan probiotiklər əsasən əvəzedici təsir göstərir, bağırsaqda kolonizasiya prosesini yaxşılaşdırır, şərti patogen floranın inkişafını ləngidir.

Beləliklə, hiperbilirubinemiyası olan yenidoğulmuşlarda probiotikoterapiyadan sonra bağırsaqda aşağıdakı kolonizasiya xüsusiyyətləri qeyd olundu: bifido. və laktobakteriyaların aşkaredilmə tezliyi və miqdarı tez artdı, adi eşerxiyaların populyasiya səviyyəsi normallaşdı və rastgəlmə tezliyi azaldı; bifidobakteriyaların olmaması və ya defisiti ilə əlaqədar yaranan bağırsağın disbiotik vəziyyəti kəskin azaldı.

Hiperbilirubinemiyası olan yenidoğulmuşlarda bağırsaq dizbakteriozunun probiotiklərlə müalicəsi zamanı immun sistemdə baş verən dəyişikliklərin dinamikasına nəzər salsaq hər 3 yarımqrupda immun sistemdə baş verən dəyişikliklər probiotikoterapiyadan əvvəl bir-birindən fərqlənməmiş, T-limfositlərin, T-helperlərin, B-limfositlərin, JqG-nın azalması, T-supressorların, Jq M, Jq A-nın səviyyələrinin artması ilə müşahidə edilmişdir.Bu istər hüceyrə, istərsə də humoral immunitetin formalaşmasında bağırsaq florasının mühüm rol oynadığı bir daha təsdiq edir.

Probiotikoterapiya fonunda immun göstəricilərdə baş verən dəyişikliklər hər 3 qrupda eyni istiqamətli və xarakterli olmuşdur; müqayisədə daha qabarıq pozitiv dəyişikliklər – T-limfositlərin, T-helperlərin, B-limfositlərin və Jq G-nın artması, Jq M və Jq G-nın azalması müşahidə olunmuş, müalicədən əvvəlki eyniadlı göstəricilərlə müqayisədə dürüst fərqlənmişdir .

Beləliklə, apardığımız tədqiqatın nəticəsi göstərir ki, yüksək dozada laktobakterin və asidofilus eyni dərəcəli kliniki-mikrobioloji və immunoloji səmərə verir.

ƏDƏBİYYAT

1. Копанев Ю.А., Соклолов А.Л. Дисбактериоз кишечника микробиологические и клинические аспекты микроэкологических нарушений у детей.- М., 2002, 168с.

2. Самсыгина Г.А.,Савелева Г.М.,Коноиляников А.Г.Характеристика иммунного ответа плода в перинатальном периоде жизни в норме и при патологии.Материалы конгресса «Современные технологии в педиатрии и детской хирургии.- М., 2002, с.91-92

3. Шендеров Б.А.Медицинская микробная экология и функциональное питание.- М., 2001, т 3, 221с.

4. Щербакова Э.Г.,Баранов А.А.,Дорофейчук В.Г.Бифилиз в комплексном лечении и профилактике дисбактериоза кишечника (пособие для врачей).- М., 2000, 44с.

5. Delneste Y., Donnet-Hughes A., Schiffrin E.J. Mechanisms of Action on Immunocompetent cells // Nutr.rev., 1998, p93-98

6. Martin L.G.,Brambrink A.M.Lehmannc.Hypoksiya,ischemia canses abnormalities in glutamate transporters and death of astroglia and neurous in newborn striatum // Annals of neurology., 1997, v.42; N3, p.335-348.

7. Rusch V.Ottendorfer D.et al Erqebnise einer offenen,nicht placebo-kontrollerten. Studien zu Untersuchungen des immunomodulatorichen Potentials von Autovaccine // Arznemitel-forsch Druq Res., 2001, v.51, p. 690-697

SUMMARY
DYNAMICS OF THE CLINICAL IMMUNOLOGICAL INDICATORS AND EVALUATION OF THE EFFICACY OF THE ROBIOTICOTHERAPY IN HYPERBILIRUBINEMIC NEWBORNS WITH INTESTINAL DISFUNCTION
N.A Huseynova

Quantitative and qualitative changes of intestinal flora and dysfunction of the intestinal microecology depletes organism's compensator-defense reserves. This issue is particularly important in the newborns with perinatal pathology. The goal of the research was the analysis of immune system changes and evaluation of the probioticotherapy in the hyperbilirubinemic newborns with intestinal dysfunction. To achieve this goal we observed 38 newborns with hyperbilirubinemia. Research was entirely performed at the Scientific Research Pediatrics Institute basis. Newborns were divided into 2 groups. The first group consisted of 22 newborns with hemolytic disease born from mothers with intestinal dysbiosis. The rest 16 newborns also were suffering from hemolytic disease but they were born form mothers with no known intestinal pathology. Changes of the indicators of immune system were clearly depending on the severity of intestinal disbiosis.

We investigated the changes of the immune system under the treatment of intestinal dysbactriosis with probiotics in the newborns with hyperbilirubinemia. In all semi groups were the decrease in the numbers of T-lymphocytes, T-helpers, B-lymphocytes, IgG-level and the increase in the numbers of T-supressors, IgM and IgA levels before the treatment with probiotics were started. With the probioticotherapy we observed the increase in the numbers of T-lymphocytes, B-lymphocytes as well as IgG levels. IgM and IgA levels reduced with the treatment. The results confirm the importance of intestinal micro flora in the development of cell and humoral immunity.

As a result of our investigation we can conclude that lactobacterin and asidofilus in high doses are associated with the clinical- microbiological and immunological efficacy.

Daxil olub: 08.09.2008

УРОВЕНЬ И ТЕНДЕНЦИИ АБОРТОВ СРЕДИ ЖЕНЩИН СОЦИАЛЬНО-УЯЗВИМЫХ ГРУПП

Г.Дж.Бейшенбиева
Кыргызская Государственная медицинская академия, г. Бишкек

Большие социальные и экономические изменения, происшедшие за последнее десятилетие в Кыргызской Республике, как и во всех странах СНГ, оказали влияние на все аспекты жизни, в том числе и на здоровье населения. Наша страна до настоящего времени переживает период становления, который сопровождается кризисом социальной, политической и духовной сфер и испытывает значительные социально-экономические проблемы. В таких условиях больше всего страдают женщины и дети, как наиболее уязвимые слои населения [1, 2,5,9]. Несмотря на ряд мер, предпринимаемых в Кыргызстане по развитию служб охраны здоровья матери и ребенка, а также улучшения качества и доступности медицинских услуг, вопросы охраны репродуктивного здоровья женщин республики остаются весьма актуальными [2,4,8]. Сейчас наиболее острыми проблемами женщин Кыргызстана являются бедность, проблемы сельских женщин и внутренней миграции [1,2,4,8]. В настоящее время 45,9% населения республики живет ниже черты бедности, причем уровень бедности сельского населения составляет 55%, а городского – 28,3%. Известно, что в условиях крайней бедности на селе проживает 16,9%, а в городе – 6,9% населения. Кроме того, в стране имеется высокая дифференциация по регионам республики – если в Чуйской области бедными являются 21,7% жителей, то в Баткенской области – 77,8 %, причем уровень крайней бедности в этой области составляет 33,7% [4,5].

Необходимо отметить, что, несмотря на стойкую тенденцию к снижению уровня абортов в республике, они продолжают оставаться одним из основных методов регулирования рождаемости. Своевременное и надежное применение эффективных контрацептивных методов может предотвратить большинство абортов, но уровень информированности населения о методах контрацепции и принципах планирования семьи остается низким [3,6,7].

Искусственный аборт остается важнейшей составной частью планирования семьи, иногда становится единственным средством регулирования рождаемости и контроля фертильности женщин из социально-уязвимых групп населения. Основные причины, приводящие к нежелательной беременности и аборту у этой категории женщин в современных условиях – это недостаточное сексуальное и контрацептивное образование, отсутствие или недоступность средств контрацепции, отсутствие доступа к службам планирования семьи [7,8,9]. Все эти негативные явления, безусловно, являются причиной роста числа заболеваний репродуктивной системы у женщин, особенно социально-уязвимых слоев населения и жительниц сельской местности.

ЦЕЛЬЮ данного исследования было изучение уровня и анализ тенденций абортов среди женщин социально-уязвимых групп населения, а также доступности и применения ими методов контрацепции.

МАТЕРИАЛЫ И МЕТОДЫ ИССЛЕДОВАНИЯ. Было обследовано 1805 женщин детородного возраста (18 – 49 лет), жительниц сельской местности Южного региона Кыргызстана, 580 из которых являлись внутренними мигрантами, временными жительницами г. Бишкек. Нами проводился опрос женщин с заполнением специально разработанной анкеты, состоящей из блока вопросов относительно их социального статуса, менструальной и детородной функции, репродуктивного поведения, количества и мотивации к аборту и послеабортных осложнениях. Выяснялся репродуктивный анамнез женщин, их контрацептивный выбор в прошлом и настоящем, а также доступность медицинской помощи, в том числе, и в области охраны репродуктивного здоровья.

РЕЗУЛЬТАТЫ И ИХ ОБСУЖДЕНИЕ. Как известно, большое влияние на состояние здоровья женщин, в том числе и репродуктивного, оказывают особенности их социально – биологического статуса, уровень образования, состояние условий проживания, этническая принадлежности женщины и т.д. [7,8,9]. Например, число беременностей, завершившихся абортами, возрастает по мере роста уровня образования женщины. Проведенное нами исследование показало, что возрастной состав респонденток выглядел следующим образом – женщин в возрасте от 18 до 24 лет было 23%, от 25 до 29 лет – 22%, от 30 до 34 лет – 23%. Женщины возрастной группы 35-39 лет составили 18%, а 40 - 44 лет – 14% из числа опрошенных. Национальный состав опрошенных женщин был таковым: 59% составили кыргызки, 35,4% - узбечки, 2,4% - таджички и другие – 4,2%. Все женщины на вопрос о религиозной принадлежности указали на мусульманство. Анализ уровня образования этих женщин показал, что среднее образование имели 71.7% опрошенных, средне-специальное – 18,8%, высшее – 8,3%, а 1,2% их них не имели образования. Выяснение наличия индуцированного аборта в анамнезе женщин репродуктивного возраста показал, что у 23,5% жительниц села и внутренних мигрантов имели один или более абортов, причем количество женщин производивших аборт в течение жизни возрастает с возрастом. Так, если среди женщин в возрасте 20 – 29 лет аборт был произведен у 24,2% опрошенных, то у женщин старше 35 лет этот показатель равен уже 55%. Более двух абортов в анамнезе имели 53,7% респонденток. Проведенный опрос женщин показал, что все аборты им производились в медицинских учреждениях, причем 67,3% абортов было произведено методом выскабливания полости матки, остальные же - методом вакуум-аспирации в малых сроках.

